# Azərbaycanın turizm imkanları Hindistanda sərgilənir

Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəni təmsil edən turizm sənayesi nümayəndələri Hindistanın Nyu-Dehli şəhərində keçirilən "BLTM" ("Business+Leisure Travel and MICE") sərgisində ilk dəfə iştirak ediblər.




Sərginin açılış mərasiminə Azərbaycan Turizm Bürosunun Baş icraçı direktoru Florian Zenqstşmid də qatılıb.

Dövlət Turizm Agentliyindən AZƏRTAC-a bildirilib ki, sərgidə ölkəmizi Turizm Bürosu ilə birgə "Şahdağ" Turizm Mərkəzi daxil olmaqla, ümumilikdə 9 yerli turizm sənayesi nümayəndəsi təmsil edib.

Görüşlər zamanı Hindistanın turizm sənayesi nümayəndələri Azərbaycanda mövcud turizm məhsulları, mədəni irs, milli mətbəx nümunələri, qış turizmi və dağ-xizək mərkəzləri, şərabçılıq turizmi, sağlamlıq turizmi, ekoturizm imkanları, eləcə də Hindistanın film və toy təşkilatçılığı üzrə ixtisaslaşmış sənaye nümayəndələrinə Azərbaycanın bu istiqamətdə təklif etdiyi məhsullar haqqında ətraflı məlumat təqdim olunub.

Həmçinin Hindistanın turizm üzrə aparıcı şirkətləri ilə keçirilən B2B görüşlərdə Azərbaycanda işgüzar tədbirlərin təşkili üzrə mövcud infrastruktur və bütövlükdə ölkəmizin turizm potensialı haqqında məlumat verilib.

Qeyd edək ki, 2024-cü ilin yanvar-iyul aylarında Azərbaycana səfər edən Hindistan vətəndaşlarının sayı 139 min 109 nəfər təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 151 faiz artım təşkil edir.

---

Azərbaycan.- 2024.- 30 avqust (№ 186).- S.11.